**Kənan Şöhrət oğlu Vəkilov**

**UOT:330.341: 336.025; JEL:D80;O00;O30.**

# Yeni çağırışlar şəraitində bilik iqtisadiyyatının modelləşdirməsində innovatik sahibkarlığın inkişafına müasir yanaşmalar və reallıqlar

***Xülasə***

*Tədqiqatın məqsədi yeni çağırışlar şəraitində bilik iqtisadiyyatının modelləşdirməsində innovatik sahibkarlığın inkişafına müasir yanaşmalar və reallıqların tədqiqindən ibarətdir. Bu məqsədlə hazırkı dövrdə qlobal transformasiyalar şəraitində bilik iqtisadiyyatının ön plana çıxmasının aktual məsələləri araşdırılmışdır. Dünya təcrübəsində bilik iqtisadiyyatının daha səmərəli mexanizmlər əsasında modelləşdirilməsi xüsusiyyətlərinə baxılmışdır. Azərbaycanda bilik iqtisadiyyatının inkişaf tendensiyalarının özəllikləri verilmişdir. Ölkəmizdə universitetlərin elmi tədqiqat potensialından istifadə məsələlərinə diqqət yöldilmişdir. Bilik iqtisadiyyatının modelləşdirilməsində klasterlərdən, texnoparklardan və innovatik funksiyalardan istifadənin genişləndirilməsinin vacibliyi verilmişdir. Bilik iqtisadiyyatının inkişaf etdirilməsi istiqamətində fikir mübadiləsi aparılmış və bu sahədəki problemlərə münasibət bildirilmişdir. Tədqiqatın metodologiyası məlum iqtisadi metodlardan, o cümlədən təhlil, sintez, statistik təhlil, müqayisəli təhlil və ümumiləşdirmə metodlarından daha çox istifadə edilmişdir. Baxılan problemlərə dair digər tədqiqatçıların elmi-metodoloji yanaşmalarından da istifadə olunmuşdur. Tədqiqatın tətbiqi əhəmiyyəti - əldə olunmuş elmi-praktiki nəticələrdən Azərbaycanda bilik iqtisadiyyatının yeni çağırışlara uyğun olaraq formalaşdırılması və modelləşdirilməsi konsepsiyasının işlənməsində istifadə edilməsi perspektivləri ilə bağlıdır. Tədqiqatın nəticələri – hazırkı qlobal təhdidlərin artdığı bir dövrdə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, o cümlədən bilik iqtisadiyyatının bu sırada yer alması ilə bağlı məqsədli proqramların işləməsində və həyata keçirilməsində faydalı ola bilməsi ilə əlaqəlidir. Tədqiqatın orijinallığı və elmi yeniliyi - baxılan problemlər və bununla bağlı yanaşmalar əsasən müasir çağırışlar və reallıqlar konteksində baş verdiyindən və formalaşdığından məqalədə verilən matreriallar əsasən originaldır. Əsas elmi yenilik isə yeni çağırışlar şəraitində bilik iqtisadiyyatının formalaşması və inkişaf etdirilməsinə obyektiv elmi-praktiki baxışların müəyyənləşdirilməsi və adekvat modelləşdirmənin təmin olunmasından ibarətdir. Ölkəmizdə bilik iqtisadiyyatının inkişafının sürətləndirilməsi üçün sistemli və ardıcıl tədbirlərin görülməsinin vacibliyi əsaslandırılmışdır. Yeni innovativ mexanzimlərin, o cümlədən klasterlərin və texnoparkların inkişaf etdirilməsi hesabına bilik iqtisadiyyatının innovatik infrastrukturunun yaradılmasının srtateji əhəmiyyəti açıqlanmışdır. Yaxın illərdə postpandemiya dövründə və işğaldan azad olunmuş ərazilərin bərpa edilməsi proseslərində yüksək texnologiyalardan istifadənin şaxələndirilməsi bilik iqtisadiyyatının inkişafına təkanverici qüvvə kimi qiymətləndirilmiş və müvafiq təkliflər hazırlanmışdır.*

***Açar sözləri:*** *yeni iqtisadi çağırışlar, bilik iqtisadiyyatının prioritetləri, bilik iqtisadiyyatının modelləşdirilməsi, universitetlər, texnoparklar, klasterlər, innovatik inkişaf modelləri.*

## Giriş

Yeni çağırışlar şəraitində bilik iqtisadiyyatının inkişaf etdirilməsi, bununla bağlı resursların daha intensiv şəkildə hərəkətə gətirilməsi və zəruri tədbirlərin görülməsi vacib şərtlərdəndir. Hazırkı qlobal çağırışlar nəzərə alınmaqla müasir dövrdə ölkə iqtisadiyyatının yüksək texnologiyalar və biliklər əsasında inkişaf etdirilməsinin vacibliyi xeyli artmışdır.

*©Kənan Şöhrət oğlu Vəkilov i.f.d., Bakı Dövlət Universiteti, "Dünya iqtisadiyyatı" kafedrası, müəllim.*
*E-mail: kanan.vekilov@mail.ru*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

Belə ki, yeni və məhsuldar iqtisadi artım mənbələrinin formlaşdırılması, dünya bazarlarında rəqabət qabiliyyətli məhsulların ortaya çıxarılması, rəqibləri ilə müqayisədə üstünlük əldə etməsi, keyfiyyət və əlçatanlıq problemlərinin həll olunması vacib şərtlər kimi diqqət çəkirlər. Bu sırada rəqəmsallaşma iqtisadiyyatının ön plana çıxdığı bir vaxtda bilik iqtisadiyyatının inkişaf etdirilməsi və bu sahədə güclü dövlət siyasətinin təşkili vacibdir. Digər tərəfdən, biliklərin, ixtiraların, intellektual resursların ən yaxşılarının və məhsuldarlarının operativ olaraq təsərrüfat-istehsal, kommersiya dövriyyəsinə daxil edilməsi, bilik iqtisadiyyatı xidmətlərinin geniş çeşidinin elm və texnologiyalar xidmətləri bazarlarına çıxarılması, daha cəlbedici bilik iqtisadiyyatı elementlərinin yaradılması tələb olunur. Bütün bunlar üçün mövcud resursların hərəkətinin səmərəli təşkili üçün innovatik sahibkarlıq yanaşmalarından istifadə olunması dünya təcrübəsində müəyyən mənada özünü doğrultmuşdur. Analoji problemlər və məsələlər ölkəmiz üçün xeyli xarakterik hesab olunur. Son illərdə iqtisadiyyatımızın strukturunun genişləndirilməsi, qeyri-neft təmayüllü və müasir texnologiyalar əsaslı iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi hesabına bu strukturunun diversifikasiyalaşdırılması, əlavə dəyər yarada biləcək iqtisadiyyat sahələrinin imkanlarından bəhrələnmək üçün addımların atılması prosesləri sürətlənmişdir. Xüsusilə, 2015-ci ildən başlayaraq neft amilinin rolunun qeyri-sabitliyi, milli valyutanın devalvasiyası, dünya enerji və maliyyə bazarlarındakı problemlər daha çevik və etibarlı maliyyə mexanizmlərinin işlənməsini şərtləndirmişdir. Hesab edirik ki, bilik iqtisadiyyatı kimi yüksək intellektual və texnologiyalar tutumlu sahənin məhsuldar işinin təşkili, intellektual işləmələrin istehsal proseslərinə tətbiqinin sürətləndirilməsi geniş həcmdə maliyyə resurslarının ayrılmasını və investisiyaların yatırılmasını tələb edir. Bunun üçün investorların bilik iqtisadiyyatını formalaşdıran ölkəyə böyük etimadı və inamı olmalıdır. Bu inam isə öz əksini qanunvericilik aktlarında, ölkə qanunlarında, innovatik sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı dövlət siyasətində, sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün yaradılan investisiya-innovasiya mühitində, bu proseslərin intensivliyini təmin edəcək etibarlı və əlçatan maliyyə təminatı mexanizmlərində tapmalıdır. Bilik iqtisadiyyatının proqnozlaşdırılan nəticələrinin reallaşdırılmasına qədər olan proseslər o qədər də qısa deyildir, bu proseslərdə istifadə olunan maliyyə resurslarının ödənmə müddətləri müəyyən vaxt tələb edir, əməliyyat və maliyyə riskləri də çoxdur, proseslərin planlaşdırılan inkişafına kifayət qədər ciddi təsir edə biləcək daxili və xarici amillər də istisna olunmur. Buna görə də, bilik iqtisadiyyatının dayanıqlı inkişafı və bununla bağlı prioritetlərin reallaşdırılması məqsədilə uzunmüddətli dövr üçün nəzərdə tutulmuş yanaşmalar, o cümlədən bu proseslərdə innovatik sahibkarlığın strateji rolunun reallaşdıırlmasına adekvat ola biləcək maliyyə təminatı və investisiyal mexanizmləri olmalıdır.

**Qlobal səviyyədə təhdidlər konteksində bilik iqtisadiyyatının modelləşdirilməsi problemlərində innovatik sahibkarlığın inkişafının tədqiqi**

Qlobal təhdidlər artdıqca və yeni çağırışlar öz şərtlərini diktə etdikcə iqtisadiyyatın şaxələndirilməsi, onun immunitetinin artırılması problemləri ortaya çıxır. Xüsusilə, yeni iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi prioritetləri ön plana çıxır və bu istiqamətdə bilik iqtisadiyyatının modelləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Amma, bilik iqtisadiyyatının modelləşdirilməsi çoxşaxəli fəaliyyəti şərtləndirir və bu baxımdan innovatik sahibkarlığın inkişaf etdirilməsi həlledici amillərdən biri kimi dəyərləndirilir. Belə ki, bilik iqtisadiyyatı elementlərinin ardıcıl şəkildə fundamental olaraq öyrənilməsi, onların xüsusiyyətlərindən yanaşmaqla, bu sahənin yüksək texnologiyalar əsaslı infrastrukturunun yaradılması, həmin proseslərə sahibkarlıq subyektlərinin daha fəal cəlb edilməsi lazımdır. İqtisadi inkişafın modelləşdirilməsi prioritetlərində dövlət tərəfindən daha çox rəqabətqabiliyyətli və innovasiya tutumlu iqtisadiyyat sahələrinin inkişafını ön plana çıxarmaqla, ölkə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

iqtisadiyyatının dayanıqlı artımına əlavə töhfələr vermək olar. Bu problemlərlə bağlı olaraq, müqayisəli təhlillərin aparılması və baxılan problemlər üzrə qiymətləndirilmələrin həyata keçirilməsi səmərə verə bilər. Eyni zamanda, qlobal səviyyədə artmaqda olan təhlükələrin və intensiv formada ortaya çıxan mürəkkəb çağırışların tələblərinə uyğun şəkildə iqtisadiyyat sahələrinin fəaliyyətinin tənzimlənməsi, bu proseslərə innovatik sahibkarlıq subyektlərinin cəlb olunması təmin edilməlidir. Bilik iqtisadiyyatının əsas prioritetlərinin müəyyənləşdirilməsində, bu baxımdan ölkə qarşısında duran vəzifələrin sistemləşdirilməsində innovativ və yaradıcı proseslərə diqqət artırılmalıdır. İnnovativ sahibkarlıq özündə yüksək texnologiyaların və yeni innovasiyaların, dərin bilik və intellektual resursların, fəal şəkildə, həm də etibarlı formada maliyyə təminatı mexanizmini olmasını birləşdirir. Belə olduğu təqdirdə, bilik iqtisadiyyatının inkişafının şaxələndirilməsində innovatik sahibkarlıq daha tez səmərə verə bilər [1].

Qeyd edək ki, bilik iqtisadiyyatlı əsaslı biznesin və innovatik sahibkarlığın inkişaf etdirilməsindən ötrü etibarlı maliyyə təminatınmın olması istiqamətində maraqlı tərəflərin sıx əməkdaşlığı təmin edilməlidir. Xüsusilə, informasiya iqtisadiyyatının genişləndirilməsi, ümumilikdə bilik iqtisadiyyatının dərinləşdirilməsi məqsədilə innovativ strukturlarının yaradılması və 4.0. sənaye inqilabının təsirlərinin bu kontekstdə qiymətləndirilməsinə ciddi önəm verilməlidir. İnnovatik sahibkarlığın maliyyə təminatı və investisiya problemləri ilə bağlı məsələlərin həlli innovativ mexanizmlərin daha səmərəli tətbiqinə imkan verər. Amma etiraf edək ki, bu sahədə ölkəmiz dünya ölkələri ilə müqayisədə hələ o qədər də yüksək nəticələr əldə etməyiblər. Belə ki, Azərbaycanda bilik iqtisadiyyatına aid olan sahələrin ÜDM-dəki payı 8 % civarındadır. Müqayisə üçün bu göstərici Rusiyada – 15 %, inkişaf etmiş ölkələrdə isə - 35-45 %-dir. Bu baxımdan universitetlərdə və elmi-tədqiqat müəssisələrində innovatik sahibkarlığın genişləndirilməsinə məqsədli yanaşmalar vacibdir. Universitetlərin və elmi-tədqiqat institutlarının sənaye ilə əlaqələri qarşılıqlı tədqiqat ekosistemini yaradır, imkanlar şəbəkəsini inkişaf etdirir və iş adamlarının yeni dalğasını təcrübə və resurslarla təmin edir. Deməli, universitetlər tərəfindən yaranan vəziyyəti nəzərə almaq faydalı olardı. Yeni çağırışlar şəraitində universitetlərin qarşısında tələblər maksimum transformasiyalara uğramaqdadır, bu sırada universitet-sənaye əməkdaşlığına zərurət kifayət qədər çoxalmışdır. Bundan əlavə, analoji əməkdaşlığın yüksək səviyyədə təşkil olunmasında dünya təcrübəsində texnoparkların çoxfunksiyalı xüsusiyyətlərindən daha çox istifadə olunur [2].

Universitetlərdə fəaliyyət göstərən elmi-tədqiqat mərkəzlərində alınan elmi-praktiki nəticələrin, kəşflərin və ixtiraların istehsal proseslərində sınaqdan keçirilməsi və tətbiq edilməsi işlərində texnoparklar çox mühüm funksiyaları yerinə yetirilər. Bunun üçün texnoparklarda müasir avadanlıqlar, istehsal və texnoloji infrastruktur, həmçinin mütəxəssislər vardır. Həm də, texnoparklar rəqabətqabiliyyətli məhsulların strukturunun genişləndirilməsində, istehsalının artırılmasında və ixrac potensialının yüksəldilməsində səmərəliliyi ilə fərqlənirlər. Universitetlərin sənaye müəssisələri ilə əməkdaşlığı nəticəsində daha çox keyfiyyətli məhsulların istehesal olunması formalaşdırılır [3]. Texnoparklar dövlət tərəfindən cəlbedici dəstək mexanizmləri ilə əhatə olunan innovatik fəaliyyət mexanizmi və müəyyən dövr üçün vergi güzəştlərinə malik fəaliyyət məkanıdır. Bu kimi iqtisadi mexanizmlər universitetlərlə sənaye subyektləri arasında əməkdaşlığın yeni səviyyəyə qaldırılmasında kifayət qədər əlverişli fəaliyyət məkanı kimi qiymətləndirilir [4]. Bunlarla bərabər, texnoparklarda innovatik sahibkarlığın inkişaf etdirilməsi, innovasiyaların işlənməsi və tətbiq olunması üçün zəruri infrastruktur mövcuddur. Eyni zamanda, bir çox universitetlər özləri çoxfunksiyalı texnoparklar yaratmaqla yeni innovasiyaların işlənməsi və tətbiqi üçün imkan əldə etmiş olurlar. Beynəlxalq əlaqələrin genişləndirilməsində, investorların cəlb olunmasında və maraqlı sənaye subyektləri partnyorlarının sırasının genişləndirilməsində



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

texnoparklar əhəmiyyətli funksiyalara malikdirlər [5]. Son illərdə bir çox elmi tədqiqatlarda daha çox innovasiya və sahibkarlıq probleminə diqqət yetirilir. Bu problemlərin hər ikisinə həm nəzəri, həm də təcrübi baxımdan yanaşılır. Sahibkarlıq fəaliyyəti sistemli şəkildə mənfəət əldə etmək məqsədi ilə konkret məhsulların (işlərin, xidmətlərin) yaradılması və satışı prosesinin təşkili və həyata keçirilməsidir. İnnovasiya isə yeni və ya təkmilləşdirilmiş məhsulların yaradılması, mənimsənilməsi, yayılması və tətbiqi prosesdir. Sahibkarlıq fəaliyyətindən fərqli olaraq, innovasiya başqa bir problemi həll edir - sahibkarın müxtəlif növ effektlər (iqtisadi, sosial, ekoloji) əldə etmək üçün yenilik axtarışını və inkişafını təmin edir. Bu zaman innovativ fəaliyyət sahibkarın fəaliyyətinin funksional sahələrindən biri kimi nəzərdən keçirilir və sahibkarlıq fəaliyyətinin innovativ növünü xarakterizə edir [6].

Dünya təcrübəsindən yanaşdıqda, bilik iqtisadiyyatının formalaşdırılmasında innovatik sahibkarlığın və bununla bağlı innovasiya proseslərin kompleksin inkişaf etdirilməsi vacibdir. Belə ki, innovasiya prosesinin özəlliyi ondan ibarətdir ki, o, elmi, texnologiyanı, iqtisadiyyatı, sahibkarlığı, idarəetməni özündə birləşdirir və elmi ideyanın yarandığı vaxtdan onun kommersiyalaşdırılmasının həyata keçirilməsinə qədər bütün spektiri əhatə edir. İnnovasiya mövcud müəssisənin inkişafının yeni yollarının axtarışına əsaslanır. İnnovasiyalar həm də yeni sosial, ekoloji, təşkilati, iqtisadi inkişaflar, idarəetmə üsulları və iqtisadi fəaliyyətin informasiya təminatıdır. İnnovasiyanın mühüm xüsusiyyətləri onun elmi-texniki yeniliyi, sənayedə tətbiqi və kommersiya məqsədəuyğunluğudur. Bu o deməkdir ki, elmi-texniki yeniliklər özündə yeniliyi ehtiva etməli, cəmiyyətin bazar tələbatını ödəməli, istehsalçıya maksimum gəlir gətirməlidir. Müasir dövrdə sahibkarın ən çətin işlərindən biri yeni ideyaların axtarışı və həyata keçirilməsidir. Bunun üçün yeni həll yolları tapmaq, yaradıcı düşünmək lazımdır. Lakin bütün bunlarla yanaşı, mövcud şəraitdə fəaliyyət göstərən qüvvələr balansını qiymətləndirmək və anlamaq bacarığı tələb olunur. Bütün bunlar innovativ sahibkarlıq üçün əsasdır. İnnovativ sahibkarlıq dedikdə, milli iqtisadiyyatın bütün sahələrində innovasiyaların yaradılması və fəal şəkildə yayılması yolu ilə gəlir əldə etmək məqsədi daşıyan kommersiya fəaliyyətinin xüsusi növü başa düşülür. İnnovativ sahibkarlıq kommersiya fəaliyyətinin bir növüdür. Məqsədi təhsil və iqtisadiyyatın bütün sahələrində innovasiyaların aktiv şəkildə yayılması ilə gəlir əldə etməkdir. O, müəssisənin inkişafının yeni üsullarının axtarışına və ya yeni innovasiya yönümlü müəssisənin yaradılmasına əsaslanır. İnnovativ sahibkarlığın subyektlərinə fərdi sahibkarlar və innovasiya fəaliyyətini həyata keçirən bütün mülkiyyət formalı təşkilatlar daxildir. İnnovativ sahibkarlıq elmi-tədqiqat, istehsalat və layihə institutlarında və ya birliklərində, universitetin elm müəssisələrində, bilavasitə innovativ müəssisələrdə, vençur təşkilatlarında, habelə ayrı-ayrı ixtiraçılar, konstruktorlar, texnoloqlar və alimlər tərəfindən həyata keçirilə bilər. İnnovativ sahibkarlıq nəticəsində bu subyektlər mallar, xidmətlər, görülən işlər, texniki vasitələr və texnologiyalar formasında innovasiyalar yaradırlar. Milli innovasiya sisteminin inkişafının əsas istiqamətlərinin və perspektivlərinin müəyyən edilməsi və əsaslandırılması iqtisadi inkişafın müasir mərhələsində həlledici əhəmiyyət kəsb edir. Məhz sənayenin tərəqqisini, iqtisadi fəaliyyətinin əsas elementləri olan yerli müəssisələrin maliyyə sabitliyini müəyyən edəcək səmərəli və rəqabətqabiliyyətli innovasiya sisteminin formalaşdırılmasıdır. İnformasiya cəmiyyətində elm, texnologiya və innovasiya sahəsində beynəlxalq əlaqələr daim genişlənir. İqtisadiyyatın qloballaşması şəraitində iri innovativ layihələrin həyata keçirilməsi və onların nəticələrinin bazara çıxarılması yalnız transmilli tədqiqat və istehsal şəbəkələri zəncirləri çərçivəsində mümkündür. Bu baxımdan innovativ sahibkarlığın inkişafı sahəsində beynəlxalq əlaqələrin rolunun gücləndirilməsi hər bir dövlətin siyasətinin prioritet istiqamətlərindən biridir. İnnovativ sahibkarlıq sahəsində beynəlxalq əlaqələrin aparıcı ölkələrin dövlətləri və



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

hökumətləri tərəfindən fəal şəkildə dəstəklənir və innovativ layihələrin həyata keçirilməsində elm, biznes və dövlətin sıx qarşılıqlı fəaliyyətini təmin edir [7].

Başqa bir mütərəqqi iqtisadi mexanizm - klasterlərdə bilik iqtisadiyyatının modelləşdirilməsində və innovativ sahibkarlığın inkişaf etdirilməsində faydalı ola bilər. Bilik iqtisadiyyatının formalaşmasına müasir klaster yanaşmasının mahiyyəti ondan ibarətdir ki, müxtəlif maraqlı tərəflər (biznes ictimaiyyəti, ictimai və elmi təşkilatlar, dövlət orqanları, təhsil təşkilatları, maliyyə institutları) çoxlu sayda rəqabət aparan təşkilatları əməkdaşlıq etmək üçün öz səylərini birləşdirə bilər. Onların uğurlu əməkdaşlığı həm ayrı-ayrı regionların, həm də bütövlükdə ölkənin iqtisadi və sosial inkişafını artırır. Müasir klasterlər innovativ məhsulların istehsalı üçün vahid texnoloji zənciri təşkil edir. Klaster strukturu inkişaf üzrə alimləri, investisiya şirkətlərini və ixtisaslaşmış istehsalçıları bir ərazidə birləşdirir. İnnovasiya klasteri, innovativ texnoloji parklar, texnoloji platformalar kimi təşkilati formanın yaradılması və inkişafı aşağıdakılara töhfə vermək üçün də nəzərdə tutulmuşdur:

- Dövlət və regional hakimiyyət orqanları, regional universitetlər və sənaye arasında qarşılıqlı idarəetmə əlaqələrin gücləndirilməsi. Klaster strukturları təhsil, elmi, texniki və texnoloji inkişafın əsası kimi fundamental elm qarşısında dövlət öhdəliklərinin yerinə yetirilməsinə töhfə verir;
- Kapital tutumlu elmi-tədqiqat və istehsalın inkişafı üçün şəraitin yaradılması;
- Gənc alimlər, tələbələr və aspirantlar yeni biliklərin yaradılması və yayılması prosesində fəal iştirak etdikləri üçün onların təhsil və təlim səviyyəsinin yüksəldilməsi;
- Yerli sənayenin rəqabət qabiliyyətinin gücləndirilməsi, yeni, yüksək texnologiyalı iş yerlərinin yaradılması.



Bundan əlavə bilik iqtisadiyyatı üçün klasterlərin rolu bir sıra amillərlə müəyyən edilir: müxtəlif təsərrüfat subyektlərinin birgə fəaliyyətindən yaranan fərqli təsirlər hesabına əmək məhsuldarlığı yüksəlir və bu təsirlərə əmək bölgüsü, əməliyyat xərclərinə qənaət, informasiya və texnologiya transferinin sərbəst mübadiləsi daxildir; klasterlər istehsalçıların, istehlakçıların, regional hakimiyyət orqanlarının maraqlarının uyğunlaşdırılmasını təmin edir; müxtəlif müəssisə və təşkilatların inteqrasiyası sayəsində resursların yeni birləşmələrinin yaranması, yeni ideyaların işlənib hazırlanması və həyata keçirilməsi, yeni innovativ təşkilatların yaranması üçün əlverişli mühit yaradır; klaster üzvlərinin resurslarının birləşdirilməsi ayrı-ayrı təsərrüfat subyektlərinin səlahiyyətində olmayan innovativ inkişaf problemlərini həll etməyə imkan verir və klasterlər çərçivəsində yeni biznesin yaradılması və inkişafı və yeni birgə layihələrin həyata keçirilməsi üçün əlverişli şərait formalaşır.

**Postpandemiya dövründə və işğaldan azad olunmuş ərazilər konteksində Azərbaycanda innovatik sahibkarlığın inkişaf etdirilməsi hesabına bilik iqtisadiyyatının modelləşdirilməsi perspektivləri**

Hazırda ölkəmizdə postpandemiya dövrünün inkişaf drayverləri üzrə təkmilləşdirmələr və fəaliyyət strategiyaların tənzimlənməsi prosesləri intensivləşməkdədir. Yeni iqtisadi artım mənbələrinin müəyyənləşdirilməsi və təsərrüfat dövriyyəsinə cəlb olunması məsələləri ön plana çıxmışdır. Daha önəmli bir məsələ işğaldan azad olunmuş ərazilərin dircəldilməsi işlərinin maksimum sürətləndirilməsi fazasına keçməsidir. Başqa sözlə, yeni reallıqlar yaranmış və belə bir vəziyyətdə bilik iqtisadiyyatının inkişaf etdirilməsi mexanizmləri daha çevik və adekvat olmalı, innovativ sahibkarlığın çoxfunksiyalı imkanlarından səmərəli istifadə olunması təmin edilməlidir. Digər tərəfdən, müasir dövrdə bilik iqtisadiyyatının formalaşdırılması prosesləri kifayət qədər intensiv xarakter almaqdadır. Belə ki, bu sahənin inkişaf ilə daha məhsuldar və dayanıqlı əlavə dəyər yaradan iqtisadi fəaliyyət sahələrinin təşkili və iqtisadi artımın daha məhsuldar mənbələrinin yaradılması mümkündür. Bilik

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

səviyyəsinin maksimum dərinləşməsi, biliklərin və bütövlükdə intellektual resursların gecikdirilmədən tətbiq sahələrinə yönəldilməsi bilik iqtisadiyyatının strateji fəaliyyət istiqamətləri kimi qiymətləndirilir. Burada müxtəlif müəssislərinin, ilk növbədə, elmi-tədqiqat təşkilatlarının və universitetlərin rolu ciddi önəm daşıyır. Amma, bu müəssisələrdə sahibkarlığın, xüsusilə, innovatik sahibkarlığın inkişafının təmin olunması vacib şərtlərdəndir. Elm, inovasiya və texnologiyalar sahəsində dünyada əldə olunan əsas nailiyyətlərin, ixtira və kəşflərin əhəmiyyətli hissəsi dünya universitelərində və aparıcı elmi-tədqiqat mərkəzlərində ərsəyə gəldiyindən, onların sistemli və kompleks şəkildə, həm də səmərəli formada tətbiq edilməsi, istehsal sahələrində fəaliyyətin təşkili tələb olunur. Bu proseslər bir tərəfdən, yüksək elm və texnologiyalar tutumludursa, digər tərəfdən, eyni zamanda, maliyyə tutumludur. Yəni, elmi nəticələrin və ixtiraların, yeni innovasiyaların istehsal və emal proseslərində tətbiqini təmin etmək üçün daim investisiyalar və böyük həcmdə maliyyə resursları lazımdır. İnnovatik sahibkarlığın maddi-texniki bazasının gücləndirilməsi və bu sahədə dövlət tərəfindən zəruri tədbirlərin görülməsi də diqqət mərkəzində saxlanılmalıdır. 4.0. Sənaye inqilabının təsiri altında və çağırışları ilə adekvatlıq təşkil edən innovatik fəaliyyət istiqamətlərinin obyektiv olaraq dəyərləndirilməsi, innovasiyaların işlənməsi və tətbiqinə mane olan baryerlərin ardıcıl şəkildə aradan qaldırılması tədbirləri görülməlidir. Bu sırada rəqabətqabiliyyətlilik elementlərinin ciddi şəkildə nəzərə alınması və dəyərləndirilməsi vacibdir [8]. Eyni zamanda, qeyd edək ki, Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi icra olunmaqdadır [9]. Bu strategiyada bilik iqtisadiyyatının inkişaf etdirilməsi və ümumilikdə innovativ sahibkarlığın inkişafına müsir yanaşmaların təmin olunması prioritet vəzifələr kimi müəyyənləşdirilmişdir. Xüsusilə, universitetlərdə elmi tədqiqat işlərinin daha mütəşəkkil şəkildə təşkili məsələləri qabardılmışdır. Belə ki, təhsil sistemində innovativ texnologiyalara əsasən distant texnologiyalar, elektron texnologiyalar və ya onların müxtəlif kompleksləri daxil olmaqla yeni təhsil texnologiyaları daxildir. Təhsil və elmdə innovativ texnologiyalar getdikcə daha çox bir-birinə bağlıdır və insan təhsilinin və şəxsiyyətinin formalaşmasının sinergik yollarına sövq edir, sinergetik yanaşma isə qapalı təhsil sistemindən açıq təhsil sisteminə keçidi nəzərdə tutur [10]. Bu baxımdan universitetlərdə və elmi-tədqiqat müəssisələrində innovatik sahibkarlığın genişləndirilməsinə məqsədli yanaşmalar vacibdir. Universitetlərin və elmi-tədqiqat institutlarının sənaye ilə əlaqələri qarşılıqlı tədqiqat ekosistemini yaradır, imkanlar şəbəkəsini inkişaf etdirir və iş adamlarının yeni dalğasını təcrübə və resurslarla təmin edir. Deməli, universitetlər tərəfindən yaranan vəziyyəti nəzərə almaq faydalı olardı [11].

Başqa bir problemli məsələ isə elmi-tədqiqat işlərinin yüksək texnologiyalar əsaslı infrastrukturun yaradılması, bu sahədə əldə olunmuş elmi nəticələrin, ixtiraların kommersiyalaşdırılması, potensial investorların elmi tədqiqatlarının aparılması və tətbiqi proseslərinə cəlb edilməsi, dayanıqlı və motivasiyalı maliyyə mexanizmlərinin olmamasıdır. Ölkədə elmi-tədqiqat proseslərinin maliyyələşdirilməsi, müxtəlif səpkili səviyyələrdə müsabiqələrin keçirilməsi, qrantların verilməsi prosesləri şəffaf deyildir və elmi tədqiqatçıların 80%-dən çoxu bu proseslərdən kənarda qalır. Dövlət büdcəsi tərəfindən də elmi tədqiqatların maliyyələşdirilməsi cüzi səviyyədədir və ayrılan vəsaitlərin əhəmiyyətli hissəsi elmi-tədqiqatların təşkilnə və dərinləşdirilməsində yox, ilk növbədə ölkədə orta əmək haqqı səviyyəsindən xeyli aşağı olan əmək haqqının ödənilməsinə və onunla bağlı olan digər ödənişlərin həyata keçirilməsinə yönəldirlir. Ölkəmizdə bilik iqtisadiyyatının inkişafına imkan verən iqtisadi mexanizmlərin hazırlanması və iqtisadi vasitələrin tətbiqi hesabına elmi-tədqiqat işlərinin genişləndirilməsi, innovatik sahibkarlığın inkişaf etdirilməsi mümkündür. Bu kimi qurumlarda potensial investorların, elmi-tədqiqat təşkilatları və universitetlərlə birlikdə innovativ sahibkarlığın inkişafında daha yüksək nəticələrin əldə etmələri real



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

görünür. Belə ki, əsas hədəflər elmi-tədqiqat təşkilatlarında və universitetlərdə əldə olunan biliklərin daha çevik şəkildə iqtisadiyyat dövriyyəsinə daxil edilməsi və yeni iqtisadi artım mənbələrinin formalaşdırılmasının təmin olunmasıdır.

Digər bir problemli məsələ isə, ölkəmizdə bilik iqtisadiyyatının formalaşması proseslərinə yönəldilən investisiyaların azlığı, həm də elmə çəkilən xərclərin cüzi şəkildə olmasıdır. Belə ki, 2000-2020-ci illərdə ölkəmizdə tədqiqat və işləmələrdə istifadə olunan əsas vəsaitlərin orta illik dəyəri 3 dəfəyə yaxın artsa da, ümumi məbləğ kifayət qədər aşağı səviyyədədir və təxminən ildə 160-170 mln. manat təşkil edir. Buna görə də, hesab edirik ki, bilik iqtisadiyyatının iqtisadi artımda rolunun genişləndirilməsi üçün çoxfunksiyalı iqtisadi mexanizmlərdən, o cümlədən, texnoparklar, sənaye parkları, elmi-texniki parklar, yüksək texnologiyalar parkları və xüsusi iqtisadi zonalardan fəal şəkildə istifadə olunması böyük səmərə verə bilər [12]. Eyni zamanda, universitetlərin fəaliyyətində yeni çağırışların nəzərə alınması və bununla əlaqədar olaraq innovatik yanaşmaların təmin edilməsi diqqət mərkəzində saxlanılmalıdır [13]. Ölkənin investisiya siyasətində yeni yanaşmalar formalaşdırılmalı və bilik iqtisadiyyatının inkişafında innovativ sahibkarlığın fəaliyyəti genişləndirilməlidir. Eyni zamanda, bilik iqtisadiyyatı kimi yeni və həm də risklərin çox ola biləcəyi sahə kimi investisiyaların yönəldilməsində etibarlı mühitin və mexanizmlərin yaradılması məsələlərinə diqqət artırılmalıdır. Eyni zamanda, elmi tədqiqatlara, elmin inkişafına, bilik iqtisadiyyatının gücləndirilməsinə resursların yönəldilməsi və maliyyə təminatı maksimum gücləndirilməlidir [14]. Təəssüf ki, real vəziyyət bunları özündə əks etdirmir və dövlət büdcəsindən elmə çəkilən xərclərin dinamikası göstərir ki, bu istiqamətdə ayrılan vəsaitlər son illərdə demək olar ki, eyni səviyyədə qalmışdır. Bu amillər baxımından, dövlət tərəfindən bu istiqamətdə qanunvericilik aktlarının yenilənməsi ilə bərabər, həm də dəstəkləyici mexanizmlərin və alətlərin tətbiqi daha çox səmərə verə bilərdi və hesab edirik ki, bilik iqtisadiyyatına yönəldilən investisiyalar son nəticədə həm investorlar, həm də dövlət üçün səmərəli olar. Biliyə əsaslanan iqtisadi fəaliyyətlər daha yüksək əlavə dəyərə malik məhsulların istehsalına, daha yüksək məhsuldarlığa imkan verdiyindən, ölkələrin də sürətlə zənginləşməsinə səbəb olurlar [15].



**Nəticə**

Müasir reallıqlardan yanaşdıqda, bilik iqtisadiyyatının modelləşdirilməsi məsələləri xeyli aktuallaşır və bu proseslərdə innovativ sahibkarlığın inkişaf məsələləri mövcud reallıqlardan baxılmalıdır. Belə ki, bilik iqtisadiyyatının inkişafının sürətəndirilməsində innovatik sahibkarlığın rolu əhəmiyyətli səviyyədə ön plana çıxacaq və bununla əlaqədar olaraq, daha səmərəli və funksiyalı innovativ sahibkarlıq mexanizmlərin işlənib hazırlanması, o cümlədən, innovatik infrastrukturun inkişaf etdirilməsi ilə bağlı məqsədli proqramların, investisiya-innovasiya layihələrinin hazırlanaraq reallaşdırılması zərurəti vardır. Eyni zamanda, yaxın perspektivdə ölkəmizdə bilik iqtisadiyyatının inkişafında innovatik sahibkarlığının rolunun artırılması vacibdir və bunun üçün onun maliyyə təminatı və investisiya problemləri həll olunmalıdır:

- Obyektiv reallıqlardan yanaşmaqla, bilik iqtisadiyyatının inkişafı ilə əlaqədar dünya təcrübəsinin dərindən öynənilməsi və ölkəmizində bilik iqtisadiyyatının modelləşdirilməsində innovativ sahibkarlığın inkişafının daha məhsuldar mexanizmlərinin işlənməsi və tətbiqi təmin olunmalıdır;
- Postpandemiya dövrünün şərtləri və işğaldan azad olunmuş ərazilərdə dirçəliş tədbirlərinin reallıqları nəzərə alınmaqla, bilik iqtisadiyyatının spesifik cəhətləri dərindən öyrənilməli, bu proseslərdə nnovatik sahibkarlığın inkişaf prioritetlərininən yüksək səviyyədə dəyərləndirilməsi vacibdir;

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- Bilik iqtisadiyyatının modelləşdirilməsi üçün müvafiq innovatik infrastrukturun yaradılması və innovativ sahibkarlığın inkişaf etdirilməsi məsələri kompleks şəkildə baxılmalı və fəaliyyət strategiyası hazırlanmalıdır;
- Yeni reallıqlar nəzərə alınmaqla, dövlət büdcəsindən elmə çəkilən xərclərin artırılması, ümumnilikdə ölkədə bilik iqtisadiyyatının inkiaş etdirilməsi tədbirlərinin, innovasiyaların işlənməsi və tətbiqi proseslərin maliyyələşdirilməsi məsələlərin xüsusi diqqət mərkəzində saxlanılması vacibdir.

**Ədəbiyyat**


1. Yigitcanlar, T. Understanding the multidimensional nature of innovation in the era of knowledge-based economy // International Journal Of Knowledge-Based Development. Volume 7, Issue 3, 2016. - P.203-206.
2. Баринова, В.А. Технопарки стран мира: организация деятельности и сравнение. М.: Издательский дом «Дело» РАНХиГС, 2012. 182 с.
3. Abbaszadə, M.T. Azərbaycanda müasir innovasiya siyasətinin ölkənin iqtisadi inkişafında rolu. Elm və İnnovativ Texnologiyalar Jurnalı, 2020, № 14, s. 32-45.
4. Осипова, Д.П., Остобунаева С.В., Десятниченко Д.Ю. Инновационное предпринимательство: необходимость перехода // Экономика и бизнес: теория и практика, 2017, № 4-1, c.115-120.
5. Ляшенко, Е.А. Технопарковые структуры как форма организации и стимулирования инновационной деятельности: оценка зарубежного опыта // Экономика, общество, человек: сб. науч. публ.: в 2 ч. Ч. 2. Екатеринбург: Изд-во Урал. гос. экон. ун-та, 2015.
6. Туарменский, В.В. Кострова, Ю.Б., Шибаршина, О.Ю. Университеты и технопарковые структуры: межстрановый анализ опыта взаимодействия // ЭСГИ. 2019. №2 (22).-с. 117.
7. Палкина, М.В., Палкин, А.Ю. Инновационное предпринимательство: понятие, сущность и специфика // Вестник ВСГУТУ, 2016, № 1(58), с.89-96.
8. Muradov, Ə.C., Əmirbəyov F. Yeni sənaye inqilabı: Rəqabətqabiliyyətliyin yüksəldilməsində universitetlərin rolu. 09.12.2016. https://marja.az/53/yeni-senaye-inqilabi-reqabetqabiliyyetliyin-yukseldilmesinde-universitetlerin-rolu.
9. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir, 65 s.
10. Məmmədov, Z.F, Əliyev, S.T. Rəqəmsal iqtisadiyyatin formalaşdirilmasi və inkişafi (Çin təcrübəsi) /I International Conference on Modern Trends in Digital Economy. 13-14 February, 2020, Baku, Azerbaijan. – p. 107-108.
11. İmanov, K. Biliklər və Texnologiyalar + İnvestisiyalar və Əqli mülkiyyət = Universitetlərin və Sənayenin İnsan Kapitalının Ekosistemi (ÜƏMT-nın universitet və elmitədqiqat institutları üçün əqli mülkiyyət siyasəti modelinin uyğunlaşdırılması təcrübəsindən). Bakı, 2018, 43 s.
12. Əliyev, Ş.T. Xüsusi iqtisadi zonaların tətbiqi problemləri. Bakı, Azərbaycan Respublikasının Prezidentinin yanında Elmin İnkişafı Fondu. – 2012. – 360 s., s.15.
13. Məmmədov, Z.F., Əliyev, Ş.T. Müasir dövrdə universitetlər: yeni çagırışlar, trendlər, paradiqmalar və gözləntilər // Azerbaijan Journal of Educational Studies 2020, Volume 691, Issue 2. - https://journal.edu.az/2992-universities-of-today-new-challenges-trends-paradigms-and-expectations.html.
14. İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 18 yanvar 2018-ci il.
15. Bağırzadə, E. Bilik iqtisadiyyatı, iqtisadi artım və dövlət. 2019. https://www.researchgate.net/publication/330778989_Bilik_iqtisadiyyati_iqtisadi_artim_v_dovlt.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Кенан Шохрат оглы Векилов***

***Современные подходы и реалии к развитию инновативного предпринимательства в моделировании экономики знаний в условиях новых вызовов***

***Резюме***

*Цель исследования заключается в определении современных подходов и реалий к развитию инновативного предпринимательства в моделировании экономики знаний в условиях новых вызовов. С этой целью исследованы актуальные вопросы экономики знаний в условиях глобальных трансформаций. Рассмотрены важнейшие особенности моделирования более эффективных механизмов экономики знаний в контексте мирового опыта. Даны особенности тенденций развития экономики знаний в Азербайджане. Обращено внимание на вопросы эффективного использования научно-исследовательского потенциала университетов в стране. Обоснована важность расширения использования кластеров, технопарков и инновативных функций в моделировании экономики знаний. Обобщены авторские подходы и подготовлены предложения по направлению развития экономики знаний в целом. Методология исследования состоит из существующих экономических методов, в том числе – анализа, синтеза, статистического анализа, сравнительного анализа и обобщения. Также использованы научно-методологические подходы разных исследователей по рассматриваемым проблемам. Практическая значимость исследования – научно-практические результаты полученные в статье могут быть востребованы и полезны в подготовке концептуальной основы и моделирования развития экономики знаний Азербайджана в соответствии новых вызовов. Результаты исследования – объяснятся полезностью основных научно-практических выводов статьи в разработке и реализации целевых программ по развитию экономики знаний и в целом расширение структуры экономики Азербайджана. Оригинальность и научная новизна исследования – оригинальность статьи не вызывает сомнения, так как больше всего основана современными подходами и механизмами по формированию и развитию экономики знаний и совершенствованию механизмов инновативного предпринимательства. Основная научная новизна заключается в том, что сформированы объективные научно-практические взгляды и подходы в развитии предпринимательства в моделировании экономики знаний в новых условиях. Обоснована важность системного и последовательного осуществления целевых мероприятий по ускорению развития экономики знаний в стране. Раскрыта стратегическая значимость создания инновативной инфраструктуры, в том числе кластеров и технопарков в моделировании развития экономики знаний. Подготовлены рекомендации и даны соответствующие предложения по развитию экономики знаний за счёт активизации деятельности инновативного предпринимательства и тем самым ускорить эффективное моделирование экономики знаний Азербайджана в условиях постпандемического периода и в контексте масштабных возрадительных работ в освобождённых землях от оккупаций.*

***Ключевые слова:*** *новые современные вызовы, приоритеты экономики знаний, моделирование экономики знаний, университеты, технопарки, кластеры, модели инновативного развития.*

***Kanan Shohrat Vakilov***

***Modern approaches and realities in the innovative entrepreneurship development in the modeling of the knowledge economy throughout new challenges***

***Summary***

*Research purpose is to study modern approaches and realities in the development of innovative entrepreneurship in the modeling of the knowledge economy in the face of new challenges. To this end, the current issues of the knowledge economy in the context of global transformations were studied. In world practice, the features of modeling the knowledge economy on the basis of more efficient mechanisms are considered. Features of the development trends of the knowledge economy in Azerbaijan are provided. Attention was paid to the use of the research potential of universities in our country. The importance of expanding the use of clusters, technoparks and innovative functions in the modeling of the knowledge economy was underlined. Various views on the development of the*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

*knowledge economy and commented on the problems in this area were presented Research methodology consists of well-known economic methods, including analysis, synthesis, statistical analysis, comparative analysis and generalization methods. The scientific-methodological approaches of other researchers on the considered problems were also applied in the article. The practical importance of a research – is related to the perspective of using the obtained scientific and practical results in the development of the concept of formation and modeling of the knowledge economy in Azerbaijan in accordance with the new challenges. The results of the study- are related to the diversification of the economy in Azerbaijan at a time when the current global threats are growing, as well as the fact that the knowledge economy can be useful in the development and implementation of targeted programs. Originality and scientific novelty of the research - most of the material presented in the article is original, as the problems studied and related approaches occur and are formed mainly in the context of modern challenges and realities. The main scientific innovation is the identification of objective scientific and practical views on the formation and development of the knowledge economy in the face of new challenges and the provision of adequate modeling. The importance of taking systematic and consistent measures to accelerate the development of the knowledge economy in our country is substantiated. The strategic importance of creating an innovative infrastructure of the knowledge economy through the development of new innovative mechanisms, including clusters and technoparks, was presented. In recent years, the diversification of the use of high technologies in the post-pandemic period and in the process of restoration of liberated territories were assessed as a driving force for the development of the knowledge economy and relevant proposals were prepared.*

***Keywords:*** *new economic challenges, priorities of the knowledge economy, modeling of the knowledge economy, universities, technoparks, clusters, innovative development models.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 29.04.2022.***
***Çapa qəbul olunub: 05.05.2022.***



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az